*Firudin RZAYEV-70*

# FƏDAKAR MÜƏLLİM VƏ ALİM ÖMRÜ



İllərin yaxını olan adam barədə nəsə yazmaq istəyəndə bir anlığa dünənini, bu gününü göz önünə gətirib nələri yazmaq, nələri yazmamaq haqqında düşünürsən. Düşünürsən ki, "Allahın başı bağlı ayəsi olan" insan dediyimiz bu varlığın sirri nədədir ki, onu başa düşmək, dəyərləndirmək bu qədər çətin və anlaşılmazdır. Bəlkə də, "əvvəli də sirr, sonu da sirr" olan bu varlıq gün kimi hamı üçün aşkar və aydın olsaydı, bu qədər cazibədar və möcüzəli olmazdı...

Bu gün yaşının yetmişini haqlamış dəyərli ziyalı, milli-mənəvi dəyərlərimizin təəssübkeşlərindən biri, müəllim, tədqiqatçı alim, filologiya elmləri doktoru, sözün bədii duyumunu dərindən dərk edən Firudin Rzayev də öz dünyası, həyata baxışı, özünəməxsus zövqü və yaşam tərzi olan sirrli-sehrli bir varlığın nümayəndəsidir. Yetmiş ildə həyatın və taleyin çeşidli-çeşidli cəfasını və səfasını görmüş F.Rzayevin bütün kəsişən və kəsişməyən nöqtələrini əgər zərgər tərəzisi ilə çəkmək mümkün olsaydı, yekun qənaət fərəhli və ürəkaçan olardı: Firudin Rzayev mənalı, minnətsiz, ləyaqətli və məhsuldar bir ömür yaşamış, ona görə də yetmiş illiyinin qapısını da alnıaçıq, ürək dolusu ilə açmağa haqqı çatır.

* * *

F.Rzayevin qısa və mənalı həyat yoluna, ömürlüyünə (Cəlil Vəzirov) nəzər salanda aydın olur ki, o, çoxuşaqlı bir ailənin ilkin övladı olmaqla həyatın dalğalı, tufanlı qoynuna əliqabarlı qara fəhlə kimi atılmışdır. Həyatın və insanlığın min rəngini və çalarını da o çağlardan duyub, dərk etməyə başlamışdır. Sonra əsgərlik həyatı, daha sonra "ağsaqqal" tələbəlik illəri... O vaxtkı M.F.Axündov adınıa Rus Dili və Ədəbiyyatı İnstitutunu qiyabi yolla başa vuran gələcəyin tədqiqatçı alimi iyirmi ilə yaxın orta məktəb müəllimi kimi fədakar bir ömür yaşamışdır. "Fədakar" deyirəm, ona görə ki, onun təlim-tərbiyəsini görmüş, bir ustad pedaqoq kimi "əlinin altından çıxmış" şagirdləri illərdir ki, cəmiyyətimizin layiqli vətəndaşlarına çevrilərək, Vətənimizin inkişafı üçün bacardığı töhfələri verməkdədirlər.

* * *

İllər uzunu tanıdığım Firudin haqqında düşünərkən, nədənsə, Xalq şairi Məmməd Arazın məşhur bir şeirinin ("Məndən ötdü, qardaşıma dəydi") ilk misraları yada düşür:

Ey daşlaşan, torpaqlaşan,
ulu babam!
Bu günümdən dünənimə uzaqlaşan,
ulu babam!
Küləkləşən, dumanlaşan ruhunla sən,
Ayağa dur, səninləyəm!..
Səs getməyən, əl yetməyən
qədim tarix dərəsindən
səs ver mənim səsimə sən...

Bu misralar ona görə yada düşür ki, bu misralarla F.Rzayevin elmi araşdırmalarının istiqaməti, məzmun və dəyəri arsında qırılmaz bir bağlılıq və bir-birini tamamlayan bütövlük və vəhdət görmüşəm. M.Araz da öz kimliyini bir vətəndaş, milli şair kimi mənsub olduğu xalqının kimliyində, "dumanlaşan, küləkləşən" ulu babalarının keçmişində axtarır, Firudin Rzayev də. M.Araz bədii təfəkkürün imkanlarına söykənib keçmişini, kimliyini arayırsa, F.Rzayev elmi təfəkkürün dərinliklərinə vararaq kimliyini,-tarixini axtarır. Hər iki halda M.Arazın axtardığı tarix də Vətənin, xalqın tarixidir, F.Rzayevin də axtardığı tarix minilliklərin o üzünə çıxan Kimliyimizin, Vətənimizin və Xalqımızın tarixidir.

* * *

Onun uzun illərin gərgin əməyinin bəhrəsi olan iki cildlik "Naxçıvan əhalisinin etnogenezi tarixindən" (1-ci cild, (e.ə.VI-III minilliklər), 2013; 2-ci cild (e.ə. II-I minilliklər), 2017.) elmi monoqrafik əsərləri qədim və zəngin tarixə malik olan Nuhun Vətəni-peyğəmbərlər Vətəni Naxçıvan haqqında yazılmış çox dəyərli bir kitabdır. Bir az da dəqiq desək, adı çəkilən bu iki cildlik əsər F.Rzayevin Naxçıvan əhalisinin simasında bütöv Azərbaycan əhalisinin, xalqının dünənənə qoyulmuş dəyərli abidədir. Zəngin tarixi sənədlərin, arxiv materiallarının, ciddi elmi araşdırmaları özündə ehtiva edən elmi ədəbiyyatların (bir neçə dildə) və özünün təkzib olunmaz elmi dəlillərinin işığında ərsəyə gələn "Naxçıvan əhalisinin etnogenezi tarixindən" əsəri mükəmməl bir vətəndaş alimin ortaya qoyduğu, tədqiqatçıların stolüstü kitabına çevirdiyi və tarixiliklə çağdaşlığı özündə birləşdirən sanballı araşdırmadır. Həmçinin, tədqiqatçının ayrı-ayrı vaxtlarda işıq üzü görən "Qədim Şərur oykonimlərinin mənşəyi" (2006), "Naxçıvan makrotoponimlərinin linqivistik xüsusiyyətləri" (2020) kitabları, eləcə də, "Naxçıvan ensiklopediyası"nın I-II cildlərində (2005) bir sıra elm adamları haqqında araşdırma xarakterli məlumat göstəriciləri, "Naxçıvan abidələri ensiklopediyası"nda (2008) tarixi maddi-mədəniyyət abidələri ilə bağlı yazıları, "Naxçıvan tarixi"nin I cildində yer almış II fəslin II bölmü ("Naxçıvan əhalisinin etnogenezi tarixindən"), "Dədə Qorqud yurdu-Naxçıvan: Tarixi, coğrafi və etnoqrafik atlas" (2017) məlumat kitabında getmiş yer adlarının etimaloji izahları, "Naxçıvan Muxtar Respublikasının coğrafiyası"-nın II cildinin (2018) ikinci fəsli "Naxçıvan Muxtar Respublikasının toponimiyası" (A.N.Bağırov və M.Ə-.Abbasova ilə birlikdə) və 200-ə yaxın tədqiqat yönlü məqalələri (bu məqalələrin bir çoxu erməni vandallarının zaman-zaman xalqımıza, vətənimizə ünvanladığı şər-böhtan dolu məqalələrinə cavab olaraq yazılmışdır) elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmaqdadır.

* * *

Firudin Rzayevin imzası ciddi və etibarlı imzadır. O, bir alim kimi, təkcə ölkəmizdə deyil, həm də region ölkələrdə - Türkiyədə, İranda ayrı-ayrı dönəmlərdə keçirilən bir sıra beynəlxalq elmi konfrans və simpoziumlarda da Azərbaycan elmini ləyaqətlə təmsil etmiş və etməkdədir. Eləcə də, onun dilimiz, tariximiz, etnoqrafiyamız, milli-mənəvi dəyərlərimizlə bağlı xarici ölkə mətbuat səhifələrində dərc edilən otuza yaxın elmi məqalələri və bu məqalələrin müsbət mənada zaman -zaman doğurduğu əks-sədalar Vətən və millət sevdalısı olan bu fikir və düşüncə adamının uğurlu nailiyyətlərindəndir.

* * *

Hərdən öz-özümdən soruşuram: Hardan başlanır Vətənpərvərliyin, Millətsevərliyin yolu? Yaxşı təhsildənmi? Geniş mütaliədənmi? Çox görüb-götürməkdənmi?... Bəlkə də, bu sadaladığım dəyərlərin də əhəmiyyəti böyükdür. Amma mənim üçün danılmaz bir həqiqət var ki, əsl Vətənpərvərliyin, Millətsevərliyin yolu böyük hərflərlə yazılmağa layiq olan HALALLIQDAN, süfrəyə yol açan HALAL TİKƏDƏN başlanır. Firidun Rzayevin mayası ilkindən, uşaqlıqdan süfrəsinə yol açan halal tikədən yoğrulub. O heç vaxt heç yerdə "mən də varam, mən də burdayam" (M.Araz) deməyib. O nə deyibsə, hər kəlməsindən alın təri qoxuyan elmi faktların dili ilə deyib, mənəmliyini, kimliyini də elm süfrəsinə qoyduğu halal, təmiz "tikə"ləri ilə təsdiqləyib. Ona görə də o, elmi iddiaları imkanları çərçivəsində olan alimdir.

* * *

Artıq həyat və elmi həqiqətlər çoxdan sübut etmişdir ki, bəşər tarixində bir çox dünya miqyaslı elmi kəşflər bədii təfəkkürün məhsulu kimi meydana çıxmışdır. Çünki bədii təfəkkür elmi təfəkkürlə müqayisədə daha sərhədsiz, daha geniş və tutumludur. Biz yuxarıda F.Rzayevi həm də bədii düşüncəyə, bədii təfəkkürə malik bir söz adamı kimi də təqdim etmişik. Onun 2015-ci ildə nəşr olunan "Mən vətənin köləsi" şeirlər kitabı müəllifin ilk şeirlər kitabı olsa da, təqdim olunan şeirlərin yazılma tarixindən, mövzusundan aydın olur ki, onun şeir yaradıcılığı elmi yaradıcılığından əvvəl meydana gəlmişdir. Və oxucuya təqdim olunan şeirlərin bir çoxunda bədii düşüncədən çox elmi düşüncə, informasiya aparıcı rol oynayır. Belə olan halda, demək olar ki, F.Rzayev elmə bədii ədəbiyyatdan - şeirdən gəlib. Onun şeirlərində bir problem kimi qaldırdığı və bədii həllinə nail olmağa çalışdığı Vətən, millət, xalq ağrıları eynilə də sonralar özünün həyat amalına çevirdiyi elmi axtarışlarında öz əksini tapdı. Məsələn, 1981-ci ildə qələmə aldığı "Tanrım, mənə dayaq dur" şerində narahatlıqla qaldırdığı

Ey tək Tanrım, dayaq dur!
Soyuma - Qurda dönüm!...
Dayaq dur, Turan adlı
o yurda dönüm!..
Yatmış Turan elini
ulartımla oyadım!
Tarixlərə yazılsın əzəlki
TÜRK, QURD adım!

problemin həlli istəyini o, türk və turançılıqla bağlı yazdığı bir sıra elmi araşdırmalarında da qaldırmışdır.

Yaxud, 1971-ci ildə yazılmış və mövzusu parçalanmış Vətənimizin ağrı-acısından alınmış "Ağac həsrəti" şeirində özünü göstərən vətəndaş yanğısı da:

Yarğanın qaşında sərhəd siminə
Söykəli nar bitib, budağı barlı.
Sanki meyvələri yetim uşaqdır,
Gözləri yol çəkir, üzü qubarlı...

onun elmi yaradıcılığının leytmotivinə çevrilmişdir.

Firudin Rzayev indi ömrünün barlı-bəhərli və etiraf edək ki, çoxlarına nəsib olmayan payız fəslini yaşayır. Ömür sarayına gündə bir kərpic qoya-qoya onu daha təravətli, rəngarəng edir. Oğullu, uşaqlı, nəvəli-nəticəli, səsli-küylü nağıllı bir dünyası var... Ancaq bütün bunlara baxmayaraq, o, yenə də nədənsə nigaran, nədənsə narahat bir ömür yaşayır:

Hər bir ömrün sonu bəlli
-sonu müəmma
Qaranlığın aydınlığı düz ola barı.
Büdrəsəm də, yıxılsam da
haqq savaşında,
Son anımda dikəlməyə diz ola barı...

Ömrünün tale sarbanına çevrilən qələm və fikir dostum Firudinin bu duyğusal düşüncələri, təbii ki, həyatı, dünyanı, insanı və insanlığı dərk edən fitrətlərə xasdır ki, onların da cərgəsində Firudin Rzayevin addım səsləri daha aydın eşidilməkdədir...

***22.04.2022***



***Xanəli KƏRİMLİ,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***